# Avropa Ümumi Hüquq Təşkilatı Azərbaycanla əlaqələrin genişləndirilməsində maraqlıdır

**Bakıda keçirilən BMT-nin Sivilizasiyalar Alyansının VII Qlobal Forumunda iştirak etmək məqsədilə Azərbaycanda səfərdə olan Avropa Ümumi Hüquq Təşkilatının (EPLO) prezidenti professor Spiridon Floqaitis ilə Ədliyyə Nazirliyində görüş keçirilib.**

Ədliyyə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə ədliyyə nazirinin müavini, EPLO-nun Direktorlar Şurasının üzvü Toğrul Musayev Afinada fəaliyyət göstərən Avropa Ümumi Hüquq Təşkilatı ilə səmərəli əməkdaşlığı vurğulayıb. T.Musayev ötən il EPLO-nun Yunanıstanda keçirilmiş iclasında və yeni binasının açılışında iştirakını xatırladıb, xüsusilə tədbir çərçivəsində Yunanıstanın Prezidenti Prokopis Pavlopulos tərəfindən qəbul edilməsinin Azərbaycana olan yüksək münasibətin təzahürü olduğunu qeyd edib.

Azərbaycanda uzun müddətdən sonra yenidən səfərdə olmağından məmnunluğunu bildirən S.Floqaitis Bakıda keçirilən forumun böyük əhəmiyyətini, ölkəmizdə sivilizasiyalararası dialoqun təşviqinə böyük önəm verilməsini təqdir edib. Forumun məqsədlərinin EPLO-nun fəaliyyət prinsipləri ilə üst-üstə düşdüyünü və bu sahədə həyata keçirilən tədbirləri diqqətə çatdırıb. Qonaq həmçinin təşkilatın inkişaf perspektivləri barədə məlumat verərək respublikamızın bu mötəbər qurumda təmsilçiliyini yüksək qiymətləndirib.

Söhbət zamanı əməkdaşlıq məsələlərinə dair faydalı fikir mübadiləsi aparılıb.

Sonra ədliyyə naziri Fikrət Məmmədov qonaqla görüşüb. Görüşdə Azərbaycan və Avropa Ümumi Hüquq Təşkilatı arasında səmərəli qarşılıqlı fəaliyyətdən məmnunluq ifadə edilib, S.Floqaitisin bu münasibətlərin inkişafında xidmətləri qeyd olunub. Qonaq ölkəmizlə əlaqələrin daha da genişləndirilməsində maraqlı olduğunu söyləyib.